

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 94 (23.005)

*19 may 2018-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Mayın 18-də Bakıda Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verilib. Qeyd edilib ki, binanın inşasına 2016-cı ilin iyununda başlanıb, bu ilin mayında isə başa çatdırılıb. Yeni binanın ümumi sahəsi 11 min kvadratmetrdir. Partiyanın yeni binası indi paytaxtımızın müasir və memarlıq baxımından gözoxşayan ən yaraşıqlı binalarından biridir.

Dövlətimizin başçısı yeni inzibati binanın rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin binanın foyesindəki abidəsinin önünə gül dəstəsi qoyub.

Yeni Azərbaycan Partiyasının yeni binasında Heydər Əliyev Muzeyi yaradılıb.

Prezident İlham Əliyev binada yaradılan şəraitlə yaxından tanış olub.

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 1, maddələr 11-12; 2005, № 10, maddə 906; 2006, № 10, maddə 834; 2010, № 11, maddə 920; 2011, № 12, maddə 1083) aşağıdakı dəyişikliklər təsdiq edilsin:

1. 8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 8. Naxçıvan Muxtar Respublikasında vətəndaşların seçki hüququ

I. Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

II. Məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.".

2. 15-ci maddənin I hissəsində "yaşı 25-dən aşağı olmayan" sözləri "seçkilərdə iştirak etmək hüququna malik olan" sözləri ilə əvəz edilsin.

3. 19-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:

"6) bu Konstitusiyanın 23-cü maddəsinin III hissəsinin tələbini pozduqda;

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.".

4. 29-cu maddənin II hissəsindən "Yaşı otuzdan aşağı olmayan," sözləri çıxarılsın.

5. 41-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.".

6. 43-cü maddənin III hissəsində "Azərbaycan Respublikasının Konstitusiyası" sözləri "Konstitusiya" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

---

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 18 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında muzey işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının muzey işçiləri də vardır.

**Hacıyev Akif Bağır oğlu**
**Orucəliyev Ramil Əli oğlu**

"Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif edilmişlər.

## Təbrizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunub



*Mayın 12-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə rəsmi qəbul təşkil edilmişdir.*

Əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyannağı Hüseynov çıxış edərək Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətindən, həmin dövrdə müstəqil dövlətçiliyimizin əsaslarının yaradılmasından, dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquqlarının tanınmasından, qadınlara seçki hüququnun verilməsindən və digər tədbirlərdən bəhs etmişdir. Bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi geniş qeyd edilir.

Baş konsul ötən əsrin sonlarında xalqımızın ikinci dəfə müstəqillik qazandığını və bu zaman üzləşdiyi çətinlikləri diqqətə çatdırmış, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda müstəqil dövlətçiliyimizin əsaslarının yaradıldığını qeyd etmişdir.

Diqqətə çatdırılmışdır ki, dahi şəxsiyyət xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmiz düşdüyü bəlalardan xilas olmuş, Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanılmış və əbədi xarakter almışdır. Bu gün ulu öndərin siyasi xətti Azərbaycanda davam etdirilir, dünya ölkələri ilə münasibətlər genişləndirilir. Dost və qonşu dövlət olan İranla əlaqələrin inkişafı da, bu mənada, mühüm əhəmiyyət daşıyır. Son illər hər iki ölkə prezidentlərinin həyata keçirdiyi rəsmi səfərlər, imzalanan sənədlər, göstərilən qarşılıqlı dəstək əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti valisinin təhlükəsizlik və ictimai məsələlər üzrə müavini Rəhim Şöhrətifər 28 May – Respublika Günü münasibətilə təbriklərini çatdırmış, İran-Azərbaycan əlaqələrinin inkişafı sahəsində görülən işlərdən, həyata keçirilən tədbirlərdən bəhs etmişdir.

Çıxışlardan sonra Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən film və "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" videoçarxı nümayiş olunmuş, ziyafət verilmişdir.

Rəsmi qəbulda İran İslam Respublikası Şərqi Azərbaycan Vilayətinin mədəniyyət və islami irşad idarəsinin rəhbəri Məhəmməd Məhəmmədpur, Şərqi Azərbaycan Vilayətinin turizm, əl işləri və mədəni irs təşkilatının baş direktoru Murtəza Abdar, Şərqi Azərbaycan valiliyinin siyasi, seçki və ərazi bölgüsü məsələləri ofisinin rəhbəri Rza Ustad Rəhimi, İran Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri İsmayıl Rağeb Babayi, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

## İnqrid Tersman: "Naxçıvan iqtisadiyyat, təhsil, energetika və digər sahələrdə böyük irəliləyişə nail olub"

*Xəbər verdiyimiz kimi, İsveç Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İnqrid Tersman Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Səfər çərçivəsində o, muxtar respublikanın istehsalat, mədəniyyət müəssisələri, gəzməli-görməli yerləri ilə tanış olub, tarixi abidələri ziyarət edib. İsveçli diplomatın Naxçıvan Dövlət Universiteti tələbələri üçün oxuduğu mühazirə böyük maraqla qarşılanıb.*



Mayın 18-də İsveçin ölkəmizdəki səfiri İnqrid Tersmanın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

"Şərq qapısı" qəzetinə müsahibəsində qonaq Naxçıvanla bağlı təəssüratları barədə danışıb:

– Səfərimin məqsədi Naxçıvan Muxtar Respublikası və buradakı istehsalat müəssisələri ilə tanış olmaqdır. Muxtar respublikada bir sıra görüşlər keçirdim, təhsil və mədəniyyət müəssisələrində oldum. Naxçıvanda olarkən bu qədim diyarın iqtisadiyyat, təhsil, energetika və digər sahələrdə böyük irəliləyişə nail olduğuna şahidlik etdim. Muxtar respublikanın gələcəkdə də bu nailiyyətləri davam etdirməsi üçün güclü potensialı var.

Hazırda İsveç hökumətinin Azərbaycan vətəndaşları olan tələbələr üçün təqaüd proqramı həyata keçirilir. Bu təqaüd proqramından naxçıvanlı tələbələr də yararlanıb İsveçdə təhsil ala bilərlər.

Onu da qeyd edim ki, Naxçıvan Muxtar Respublikası ilə İsveç arasında mədəniyyət sahəsində mümkün əməkdaşlıq imkanları nəzərdən keçiriləcək və gələcəkdə ola bilər ki, teatr, musiqi və film nümayişi sahəsində birgə layihələr reallaşdırılsın.

Müsahibənin sonunda muxtar respublikanın çox gözəl təbiəti, gülərüz və qonaqpərvər insanları olduğunu vurğulayan İnqrid Tersman qədim diyarın böyük turizm potensialına malik olduğunu qeyd etdi.

**Tural AĞAYEV**

## Müsabiqənin birinci test imtahanları mərhələsi başa çatıb

*Mayın 1-dən 15-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatı üzrə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 mart 2018-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları keçirilib.*

Müsabiqəyə çıxarılan 294 vakant vəzifənin tutulması üçün 395 namizəd sənəd təqdim edib, onlardan 370-i test imtahanında iştirak edib. Test imtahanlarında keçid balını toplayan 136 namizəd müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Namizədlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlikləri, Televiziya və Radio Şurası, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Statistika Komitəsi üstünlük təşkil edib.

İmtahanlar başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. Hər imtahanda qanunvericilik üzrə 40, informasiya texnologiyaları üzrə 15, dünyagörüşü üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün 2 saat 30 dəqiqə vaxt verilib. Test imtahanlarında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə videoçəkilişlər aparılıb. Test imtahanı bitdikdən dərhal sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib. Nəticələr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib.

Qanunvericiliyə uyğun olaraq müsahibə mərhələsi üçün sənədlərin qəbulu 30 gün ərzində davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Prezident İlham ƏLİYEV: Naxçıvanda görülən işlər çox böyük qiymətə layiqdir



***Regionların tarazlı və dinamik inkişafı Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasətin başlıca istiqamətlərindən biridir. Elə buna görə də ötən 15 il ərzində mühüm dövlət proqramlarının icrası nəticəsində sosial-iqtisadi sahələrdə ciddi dönüşə nail olunub, bölgələrdəki mövcud əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsi sayəsində insanların həyat şəraiti və rifahı yüksəlib.***

Dövlət Statistika Komitəsinin məlumatına görə, həmin müddətdə regional inkişaf proqramları çərçivəsində Azərbaycanda yaradılan 1,9 milyon yeni iş yerinin 72 faizi regionların payına düşüb. Bu dövr ərzində 52,6 min kilometr qaz xətti çəkilib və ya əsaslı təmir olunub, 1700-dən artıq yaşayış məntəqəsi təbii qazla təmin edilib, ümumilikdə isə regionlar üzrə qazlaşdırma səviyyəsi 41 faizdən 90 faizə çatıb. 2826 məktəbdə və 300-dən çox məktəbəqədər təhsil, habelə 451 səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Bunlarla bərabər, 38 Olimpiya-İdman Kompleksi inşa olunub, 11 min kilometrdən çox respublika və yerli əhəmiyyətli yolda təmir-tikinti işləri aparılıb, 366 körpü və tunel tikilib, yaxud təmir edilib. Mehmanxana və mehmanxanatipli müəssisələrin sayı 96-dan 550-yə çatıb ki, bunun da 400-ü regionlarda yerləşir.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına vergi güzəştlərinin tətbiqi, aqrar sahənin inkişafı üçün ayrılan güzəştli kreditlər, dövlət büdcəsinin vəsaiti hesabına kəndlilərə verilən subsidiyalar, aqrolizinq xidmətlərinin əlyetərliliyi, genişmiqyaslı meliorasiya tədbirləri, nəhəng su anbarlarının inşası, regionlarda yolnəqliyyat və digər infrastruktur layihələrinin həyata keçirilməsi üçün yönəldilən irihəcmli investisiyalar bu sahənin inkişafını şərtləndirən əsas amillər olub.

Dövlətimizin başçısı hökumətin həyata keçirməli olduğu tədbirlərin icra prosesini daim şəxsi nəzarətdə saxlayır, habelə ölkənin strateji resurslarını qlobal layihələrin reallaşdırılması istiqamətində səfərbər edir. Prezident İlham Əliyevin mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində sosial-iqtisadi önəm daşıyan bir sıra obyektlərin açılış mərasimlərində iştirakı, həmçinin ictimaiyyət nümayəndələri ilə görüşü də bunun bariz ifadəsidir. Bu, eyni zamanda son illərdə regional inkişaf və qeyri-neft sektorunun tərəqqisi ilə bağlı reallaşdırılan tədbirlərin əhatəliliyindən xəbər verir.

Dövlətimizin başçısı səfər çərçivəsində "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ölkə rəhbərinə layihə ilə bağlı görülən işlər barədə ətraflı məlumat verib. Bildirib ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb. Layihəyə əsasən Şərur şəhərinə, Mahmudkəndə və Zeyvə kəndinin bir hissəsinə su, Şərur şəhərinə isə kanalizasiya şəbəkələri çəkilib. Layihənin birinci mərhələsi ötən ilin dekabrında başa çatıb. Layihəyə əsasən Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə eni 1,3 metr, hündürlüyü 2 metr, uzunluğu 134 metr olan qalereya tikilib.

Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Buradan gələn su dezinfeksiya olunaraq su anbarlarına yığılır və öz axını ilə əhaliyə fasiləsiz ötürülür. Bununla da Şərur şəhərində, Mahmudkənddə və Zeyvə kəndinin bir hissəsində 13 min 500 nəfər Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq təmin edilir.

Şərur şəhərində borularla 19 kilometrdən çox daxili kanalizasiya şəbəkəsi çəkilib və 1500 ədəd ev kanalizasiya xəttinə qoşulub. Kanalizasiya sularının kənarlaşdırılması üçün 7,3 kilometr uzunluğunda əsas xəttin inşası həyata keçirilib.

Dövlətimizin başçısı "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin açılış mərasimindən sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərək bildirib ki, yaxın gələcəkdə Naxçıvanın bütün şəhərlərinin içməli su-kanalizasiya layihələri tam başa çatacaq. Bu, ölkəmizin gücünü, qüdrətini, sosial siyasətini göstərir: ***"Həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir".***

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvana səfəri çərçivəsində Müəllimlər İnstitutunun yeni binasının açılışında da iştirak edib. Mərasimdə dövlətimizin başçısına bu ali təhsil müəssisəsində yaradılan yüksək şərait barədə ətraflı məlumat verilib. Bu isə bir daha sübut edir ki, cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsinin inkişafı istiqamətində atılan addımların nəticəsində muxtar respublikada da böyük işlər görülüb. Bütün bunlar isə Azərbaycanda insan kapitalının inkişafı istiqamətində dövlətimizin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir.

Prezident İlham Əliyev Müəllimlər İnstitutu ilə tanışlıqdan sonra bu ali təhsil ocağının kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərək deyib: ***"Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm.***

***Naxçıvan şəhəri, bütün şəhərlər abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Yol boyunca vaxtilə əkilmiş ağaclar indi böyüyüb, çox gözəl mənzərə yaradır. Binalar təmir olunur, yeni gözəl binalar tikilir. Bir sözlə, Naxçıvanın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının istəyinə bağlı olan məsələdir. Çünki Naxçıvan bizim tarixi diyarımızdır, qədim Azərbaycan torpağıdır, tarixi yerdir. Burada yerləşən tarixi abidələr Azərbaycan xalqının istedadını göstərir. Onu göstərir ki, Azərbaycan xalqı əsrlər boyu bu diyarda yaşayıb-yaratmışdır".***

Dövlətimizin başçısı nitqində Naxçıvanın strateji ərazidə yerləşdiyini, bu qədim diyarın ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynadığını diqqətə çatdırıb. Bildirib ki, muxtar respublikanın tərəqqisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərib və o vaxt muxtar respublikanın inkişafı üçün çox böyük işlər görüb. 1990-cı illərin əvvəllərində – Naxçıvan üçün ən ağır illərdə ulu öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə bu torpağı böyük bəlalardan qurtara bilib: ***"Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar".***

Azərbaycan Prezidenti çıxışında o dövrdə dahi şəxsiyyətin rəhbərliyi ilə muxtar respublikanın çətin sınaqlardan şərəflə çıxdığını, ölkəmizin müstəqillik əldə etməsində isə Naxçıvanın çox böyük rol oynadığını vurğulayıb: ***"Məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq etdi və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin. Ancaq o vaxt Azərbaycan rəhbərliyi buna imkan vermədi.***

***O vaxt Naxçıvan "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlanırdı və ulu öndərin təklifi ilə bu addan sovet, sosialist sözləri çıxarıldı. Bu, sovet dövründə baş vermişdir. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, ulu öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində ulu öndərin və naxçıvanlıların çox böyük rolu vardır".***

Dövlətimizin başçısı nitqində ümummilli liderimizin Azərbaycan Prezidenti kimi həmişə Naxçıvana diqqət, qayğı göstərdiyini, muxtar respublikaya tez-tez səfər etdiyini xatırladaraq bildirib ki, Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır.

Azərbaycan Prezidenti çıxışında daha sonra deyib: ***"Mən də ulu öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm. Bu səfər mənim Prezident kimi Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl – 2004-cü ilin may ayında gəlmişdim. Ötən illər ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və muxtar respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa, onu da etmişik.***

***İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın yerləşməsinə, coğrafi relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir".***

Azərbaycan Prezidenti nitqində Naxçıvan Muxtar Respublikasında artıq on ildən çoxdur ki, qazlaşdırmanın 100 faiz təmin edildiyini, son illərdə burada 8 elektrik stansiyasının tikildiyini, tikilməkdə olan Ordubad Su Elektrik Stansiyasının işə düşməsindən sonra isə muxtar respublikanın öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcəyini xatırladıb.

Prezident İlham Əliyev Naxçıvana səfəri çərçivəsində şəhər Təmizləyici Qurğular Kompleksinin, Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 6 nömrəli tam orta məktəbin açılışı mərasimlərində iştirak edib, Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsindəki sərhəd dəstəsində və Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri bir daha göstərdi ki, Azərbaycanda 2004-cü ildən başlayaraq həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bölgələrimizdə geniş quruculuq və abadlıq tədbirləri həyata keçirilir, çoxsaylı infrastruktur layihələri reallaşdırılır, müxtəlif profilli istehsal müəssisələri, sosial obyektlər işə salınır, yeni iş yerləri açılır. Bütün bunlar isə hər bir rayonun, kəndin və qəsəbənin simasını dəyişməklə bərabər, əhalinin rifah halının yüksəldilməsinə, sosial problemlərinin həllinə müsbət təsir göstərir.

**Vaqif BAYRAMOV**
***"Xalq qəzeti"***
***18 may 2018-ci il***

# Mühasiblər üçün təlim keçirilib

***Naxçıvan Biznes Mərkəzində "Kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotunun aparılması" mövzusunda təlim keçirilib. Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikası Maliyyə və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə keçirilən təlimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Elçin Əliyev açıb.***



Bildirilib ki, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasında da sahibkarlığa göstərilən dövlət qayğısının nəticəsində kiçik və orta sahibkarlıq subyektlərinin sayı getdikcə artmaqdadır. Buna görə də sahibkarlıq subyektlərində mühasibat işinin təşkili çox böyük əhəmiyyət kəsb edir. Çünki mühasibat uçotu vacib və mürəkkəb bir sistemdir. Bəzi hallarda müəssisələrin gələcəyi bu sistemin düzgün və effektiv qurulmasından asılıdır.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Anar Əhmədov çıxışında bildirib ki, muxtar respublikada sahibkarların fəaliyyəti üçün yaradılmış hərtərəfli şərait, əlverişli biznes və investisiya mühitinin nəticəsində ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 89 faizə çatmışdır. Sahibkarlıq subyektlərinin dəstəklənməsi muxtar respublikanın iqtisadi potensialını artırmaqla yanaşı, Naxçıvanda lazımi investisiya mühitinin formalaşmasının göstəricisidir. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci il üçün hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır.

Qeyd olunub ki, muxtar respublikada sahibkarlıq subyektlərinin fəaliyyəti bu müəssisələrdə mühasibat işinin düzgün qurulmasından çox asılıdır. Çünki mühasibat uçotu müəssisənin elə bir sahəsidir ki, bu sahədən müəssisə gəlir də əldə edə bilər, zərər də. Buna görə də mühasibat uçotunun aparılması qaydaları ilə bağlı keçirilən bu təlim, düşünürük ki, hər bir müəssisə üçün faydalıdır.

Təlimdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin müdiri Firuzə Abdullayevanın "Kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotunun tətbiqini tənzimləyən normativ-hüquqi aktlar", nazirliyin Uçot siyasəti şöbəsinin məsləhətçisi Lətifə Əsədovanın "Orta sahibkarlıq subyektlərində memorial order əsasında sintetik uçotun aparılması", eyni zamanda hər iki təlimçinin "Kiçik sahibkarlıq subyektlərində mühasibat uçotunun təşkili" mövzusunda çıxışları dinlənilib.

Sonra müzakirələr aparılıb, təlimçilər tərəfindən iştirakçıların sualları cavablandırılıb.

✍ **Səbuhi HƏSƏNOV**

# “Qədim və müasir Naxçıvan” kitabının təqdimatı olub

***Mayın 18-də Çin Xalq Respublikasının “HUAWEI Technologies Co.LTD” şirkətinin dəstəyi ilə nəşr olunmuş “Qədim və müasir Naxçıvan” kitabının təqdimatı olub.***

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov tədbirdə çıxış edərək deyib ki, ötən ilin noyabr ayında Çin Xalq Respublikasının “Huawei” şirkətinin təşəbbüsü ilə Naxçıvanla bağlı kitab hazırlanması haqqında razılıq əldə edildikdən sonra “Huawei Azərbaycan” Məhdud Məsuliyyətli Cəmiyyətinin və Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb. Nəticədə, bu gün təqdimatı keçirilən “Qədim və müasir Naxçıvan” kitabı ərsəyə gəlib. Kitabda Naxçıvanın tarixi abidələri, turizm imkanları, mədəniyyət və incəsənət, elm və təhsil sahələri, iqtisadiyyatın və kənd təsərrüfatının inkişafı barədə ətraflı məlumat verilir. Azərbaycan və ingilis dillərində nəşr olunan kitab 8 fəsildən ibarətdir və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.






Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov tədbirdə çıxış edərək deyib ki, dünyanın ən böyük telekommunikasiya şirkətlərindən olan Çin Xalq Respublikasının “Huawei” şirkəti artıq 16 ildir ki, muxtar respublika ilə faydalı əməkdaşlığa malikdir. Naxçıvanda telekommunikasiya və informasiya texnologiyaları, eləcə də distant təhsil sahəsində həyata keçirilən tədbirlərdə mühüm xidmətləri olan şirkət rəhbərliyi Naxçıvan Muxtar Respublikası haqqında kitab nəşr etmək barədə təşəbbüs irəli sürmüşdür. Bu təşəbbüsə Naxçıvan Muxtar Respublikası Ali Məclisində baxılmış və dəyərləndirilmiş, əməkdaşlığın nəticəsi olaraq nəfis tərtibatlı “Qədim və müasir Naxçıvan” kitabı nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikasının keçib gəldiyi böyük inkişaf yoluna işıq tutan bu kitabdan Azərbaycan və ingilisdilli oxucular faydalana biləcəklər. Kitabın mühüm məziyyətlərindən biri də faktolojiliyi və foto materiallarının zənginliyidir.

Əli Həsənov səmərəli əməkdaşlığa və təşəbbüsə görə “Huawei” şirkətinin rəhbərliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəkkürünü çatdırıb.

Təqdimetmə mərasimində “Huawei Azərbaycan” Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Cao Zejun deyib ki, əməkdaşlıq etdiyimiz illərdə Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı, bu qədim diyarda müasir infrastrukturun yaradılması, bütün sahələrin inkişafına göstərilən hərtərəfli dövlət qayğısı adıçəkilən kitabın ərsəyə gəlməsinə səbəb olub. Muxtar respublika ilə gündən-günə genişlənən əlaqələrimizə bir nümunə olan “Qədim və müasir Naxçıvan” kitabında Naxçıvanın qısa bir zaman kəsiyində keçdiyi yol öz əksini tapıb. Əminəm ki, əməkdaşlığımız bundan sonra da davam edəcək.

Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, yeni nəşr muxtar respublika haqqında geniş və aydın təsəvvür yaratmaq baxımından olduqca əhəmiyyətlidir. Kitabın ilk səhifəsində Naxçıvan Muxtar Respublikası haqqında verilən qısa məlumatda bu qədim Azərbaycan torpağının tarixi, coğrafiyası, dövlət orqanları, təhsil və mədəniyyəti haqqında məlumat almaq mümkündür.

Təqdimat mərasimində çıxış edən AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli deyib ki, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı tədbirlər sırasında ümumiləşdirici əsərlərin, monoqrafiya və kitabların nəşri xüsusi yer tutur. Son 20 ildə Naxçıvanda elmin bir sıra sahələri, xüsusilə tarix və mədəniyyətin müxtəlif problemləri ilə əlaqədar çoxlu ümumiləşdirici əsərlər hazırlanıb, kitablar və monoqrafiyalar nəşr etdirilib. Azərbaycanşünaslığın tərkib hissəsi olan Naxçıvanşünaslığın elmi xəzinəsi bu gün təqdimat mərasiminə toplaşdığımız “Qədim və müasir Naxçıvan” əsəri ilə daha da zənginləşib. Kitabda Naxçıvanın tarixi və memarlıq abidələrinə geniş yer ayrılıb. Naxçıvan memarlıq məktəbinin nadir nümunələri olan həmin abidələrin timsalında deyə bilərik ki, Naxçıvanda keçmiş irs, ümumiyyətlə, milli-mənəvi dəyərlər yüksək səviyyədə qorunur. Məhz buna görə və digər amillər də nəzərə alınmaqla Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib.

Qeyd olunub ki, kitabda ulu öndər Heydər Əliyev tərəfindən hazırlanan siyasi kursun tətbiqi, ölkə Prezidenti cənab İlham Əliyevin ardıcıl diqqət və qayğısı nəticəsində qısa müddətdə əldə olunan uğurlardan, Naxçıvanın elm və təhsil müəssisələrindən, o cümlədən ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə yaradılmış AMEA Naxçıvan Bölməsindən, 3 ali təhsil müəssisəsindən, 3 orta ixtisas məktəbindən, Heydər Əliyev adına Hərbi Liseydən də bəhs edilir. Kitabın dəyərini artıran cəhətlərdən biri də onun Azərbaycan və ingilis dillərində tərtib olunmasıdır. Kitaba hər bir mövzu ilə əlaqədar yerindəcə əlavə olunan yüksəkkeyfiyyətli fotoşəkillər oxucuda bəhs olunan məsələ və ya obyekt haqqında aydın təsəvvür yaradır.

Fəxrəddin Səfərli bu qəbildən olan kitabların nəşrinə göstərdiyi yüksək diqqət və qayğıya görə muxtar respublika ziyalıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Təqdimat mərasiminin iştirakçılarına “Qədim və müasir Naxçıvan” kitabı təqdim olunub.

**“Şərq qapısı”**

# “Nuhçıxan”dan dünyaya

***XX əsrin bəşəriyyət üçün sürprizlər sandığından bir-bir çıxardığı çox möcüzələrin şahidi olmuşuq. Fantastik xəyalların gerçəkliyə çevrilməsi yaşadığımız dövrün ən nəzərəçarpan əlaməti kimi özünü təsdiq etməkdədir. Dünyada bəzən elə kəşflər olur ki, onların müəllifləri həmin dövr üçün öz tapıntılarının mahiyyətini və miqyasını doğru-dürüst dəyərləndirə bilmirlər.***

Yazının ixtirası, kağızın kəşfi, kitab çapının meydana çıxması bəşər tarixində yeni inqilabların təməli, bünövrə daşıdır. Daşlardan perqamentə, papirusdan kağıza və kitaba qədər təkamül edən informasiya daşıyıcısının ilkin vasitələri bizi qəzetdən radioya, televiziyadan internetə qədər gətirib çıxardı. Radio bir möcüzə kimi meydana gəldi, bəşər övladı XX əsrin ortalarınadək – televiziya meydana çıxana qədər onu çox əzizlədi. Gizli rəqabət nəticəsində televiziyanın sürətlə inkişaf edərək sayı milyardı ötən tamaşaçı auditoriyasını ələ keçirməsi çox da uzun zaman almadı. Ağ-qara televizorlardan başlayaraq bugünkü rəngli və yüksək yayım keyfiyyətli televizorlara qədər keçən təkamülə şahidlik edənlərin sayı çoxdur.

Bütün bunlar informasiya inqilabının təzahürü olaraq bizi bu günə – internet və ya informasiya-kommunikasiya texnologiyaları əsri adlandırdığımız XXI əsrə qədər müşayiət edib. Çünki qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti, ilk növbədə, informasiya və informasiya texnologiyalarından səmərəli istifadə ilə bağlıdır.

İnformasiya inqilabının təzahürü olan kompüter və internet istənilən formalı informasiyaları yadda saxlamağa, qeyri-məhdud məkanda yaymağa və gələcəyə ötürməyə imkan verdi. Bunun da nəticəsində bəşər tarixində misligörünməmiş, çox yüksək sürətlə artan informasiya bolluğu, “sözün həqiqi mənasında, informasiya seli yarandı. Beləliklə də, dünyada “informasiyalı cəmiyyət” dövrü formalaşdı. Belə bir cəmiyyətdə vətəndaşların informasiya almaq hüququ isə cəmiyyətin və dövlətin demokratik göstəricisi kimi qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə inkişafına həmişə xüsusi diqqət və qayğı göstərilən kütləvi informasiya vasitələri bu gün informasiya təqdimatında və təbliğində xüsusilə aparıcı rol oynayır.

Zəngin tarixə malik olan Naxçıvan teleradiosu da müstəqillik illərində yeni inkişaf mərhələsinə qədəm qoyub. Son 20 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən televiziya və radionun mükəmməl fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb, onun cəmiyyət həyatına təsirinin daha da artmasına nail olmaq baxımından muxtar respublikamızda ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Bu illər ərzində Ali Məclis Sədrinin diqqət və qayğısı ilə Naxçıvan televiziyası və radiosunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülüb. Yeni studiya avadanlıqları, videokameralar, avtomobillər, kompüter dəstləri alınıb, teleradio müasir texniki avadanlıqlarla təchiz edilib, binası yenidən qurulub.

86 il bundan əvvəl – 1932-ci il aprelin 1-də Naxçıvanda yaradılan Radio Verilişləri Komitəsi bu gün gündəlik 18 saat yayımlanan Azərbaycan və Naxçıvan Muxtar Respublikası haqqında dolğun informasiyanı internet üzərindən dünyanın hər bir nöqtəsinə çatdırmağa qadir olan Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə çevrilib.

28 ildir ki, blokada vəziyyətində yaşayan Naxçıvan Muxtar Respublikasında informasiyalaşma kimi nəhəng prosesin getməsi, informasiya cəmiyyətinin yaranması bu diyarda təkcə informasiya texnologiyaları sahəsində deyil, ümumilikdə, sosial-iqtisadi sahədə aparılan islahatların, görülən misilsiz işlərin yaratdığı inkişaf nəticəsində mümkün olub.

Bu gün Naxçıvan Dövlət Teleradiosu ölkəmizdə, o cümlədən muxtar respublikamızda baş verən ən mühüm hadisələri, xəbərləri peşəkarlıq və operativliklə yüz minlərlə tamaşaçı, dinləyici və oxucuya çatdırır, muxtar respublikanın bugünkü inkişaf tarixinin salnaməsini yaradır.

Güclü maddi-texniki imkanlar və təcrübəli əməkdaşların burada toplaşmasının nəticəsidir ki, bu gün Naxçıvan teleradiosunda ilk informasiya agentliyinin (*nuhcixan.az*) fəaliyyəti üçün də şərait yaranıb. Bu günlərdə təqdimatı keçirilən “Nuhçıxan” İnformasiya Agentliyinin yaradılması ilə Naxçıvanın informasiya blokadasını çoxdan yarmış kütləvi informasiya vasitələri sistemində bir ilkə imza atıldı.

Agentliyin formalaşması üçün ilkin şərt informasiya bolluğunun olmasıdır. Bu isə öz növbəsində görülən işin çox olması, daim inkişaf edən, yeniləşən mühitin varlığı deməkdir. Muxtar respublikamızda mövcud olan bu mühit də informasiyanın daha sürətli toplanması, yayılması və operativ çatdırılması üçün çevik kütləvi informasiya vasitəsinin meydana gəlməsini tələb edirdi.

Məhz bu tələbatın nəticəsi olaraq 2018-ci il aprelin 1-də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən “Nuhçıxan” İnformasiya Agentliyi yaradılıb. Agentliyin Nizamnaməsi isə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 2018-ci il 1 aprel tarixli kollegiya qərarı ilə təsdiq edilərək Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində 2018-ci il aprelin 5-də qeydiyyatdan keçib. Agentliyi Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin İnformasiya təminatı və saytlarla iş redaksiyası idarə edir.

Yerli və xarici media orqanları üçün muxtar respublikada rəsmi dövlət informasiyasının əsas mənbəyi olan agentliyin fəaliyyətinin ilkin məqsədi rəsmi xəbərləri, muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında baş verən yeniliklər barədə informasiyaları dolğun və operativ şəkildə ictimaiyyətə çatdırmaqdır.




“Nuhçıxan” İnformasiya Agentliyi ölkə, eləcə də muxtar respublika ilə bağlı ən mühüm hadisələr haqqında informasiyaları ictimai-siyasi, regional və beynəlxalq hadisələr barədə xəbərləri, şərh və rəyləri, analitik məqalələri, foto və video-informasiyaları, infoqrafiya məhsullarını, dövlət orqanlarının rəsmi materiallarını öz kanalları (Naxçıvan Dövlət Televiziyası, Naxçıvan Dövlət Radiosu, *naxcivantv.az* saytı), habelə beynəlxalq internet şəbəkəsi, üzvü olduğu beynəlxalq və regional media qurumlarının, tərəfdaşlıq etdiyi xarici ölkələrin informasiya agentliklərinin saytları və sosial şəbəkələr vasitəsilə yaymağı qarşıya məqsəd qoyub.

İnformasiya agentliyinin multimedialı, interaktiv, effektiv, fərdə yönəlik, ani, genişmiqyaslı, qənaətcil və sərhədsiz olmaq xüsusiyyətlərinə görə mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq deyə bilərik ki, “Nuhçıxan” İnformasiya Agentliyi ölkə və muxtar respublika həqiqətlərini planetin bütün istiqamətlərinə daha tez zaman çərçivəsində çatdırmasına imkan yaradacaqdır. Bütün bunlar isə informasiyanın daha geniş yayılmasına, tez populyarlaşmasına, informasiya axınının sürətli olmasına və buna görə də geniş oxucu auditoriyası toplamasına imkanlar açacaq.

Müasir veb-texnologiyalar elektron mətbuat orqanlarının daha sürətli formalaşması və yayılmasına təkan verir. Məlumdur ki, virtual məkan formalaşdıqca internetin imkanlarından istifadə edərək informasiyanı əldə etmək, toplamaq, emal etmək və ötürmək xeyli asanlaşır. Artıq virtual məkanın yaratdığı imkanlar hesabına dünyanın hansısa nöqtəsində baş verən hadisə haqqında məlumatların operativ olaraq istənilən məkana çatdırılması an məsələsinə çevrilib.

İnternetin müraciətə tez bir zamanda reaksiya göstərməsi onun ən fərqli xüsusiyyətlərindən biridir. Həmçinin kommunikasiya imkanlarının genişliyi, vaxta və məkana görə məhdudiyyətin olmaması, dəqiq ünvana müraciət, istifadəçi üçün aydın və yüksək effektivlik, statistik analiz imkanlarının genişləndirilməsi bu sahəni daha məqsədəuyğun hesab edir.

İnternetin əsas xarakterik xüsusiyyətlərindən biri onun, ilk növbədə, sərhədsiz olmasıdır. O yalnız poçt xidmətləri ilə məhdudlaşmır, eyni zamanda effektiv reklam, marketinq, məhsulların alışı və satışı, müştərilərə müxtəlif xidmətlərin göstərilməsi və sair deməkdir.

Bu aspektdən yanaşdıqda müasir texniki imkanlarla təmin olunmuş muxtar respublikamızın ilk informasiya agentliyi olan “Nuhçıxan”ın öz fəaliyyətini yeni metodlar vasitəsilə daha uğurlu qurmasına imkan verir. Nuhdabandan başlayan bəşər sivilizasiyasına öz töhfəsini verən qədim diyarımızda yenilikçiliyin, müasirləşmənin doğma məkanı “Nuhçıxan”, yeni fikrin, yeni addımın düşərli olsun!

**Məmməd BABAYEV**
***Naxçıvan televiziyasının əməkdaşı***

## Sərbəst güləş üzrə muxtar respublika turnirinə yekun vurulub





*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş üzrə "Heydər Əliyev kuboku" uğrunda Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi və iki gün davam edən turnirdə 100-dən çox idmançı 10 çəki dərəcəsində mübarizə aparıb.

Yekun nəticəyə əsasən Turqay Allahverdiyev (45 kiloqram), Hüseyn Əhmədli (48 kiloqram), Seymur Qasımov (51 kiloqram), Abbas Nəzərəliyev (55 kiloqram), Muxtar İbrahimov (60 kiloqram), Anar Həsənov (65 kiloqram), Rəvan Bayramov (71 kiloqram), Azər Əliyev (80 kiloqram), Gündüz Məmmədov (92 kiloqram) və Əmrah Behbudov (110 kiloqram) final görüşlərində qələbə əldə edərək turnirin qalibi adını qazanıblar.

Komanda hesabında "Naxçıvan" komandası turnirin qalibi olub. Digər iki pillədə "Babək" və Heydər Əliyev adına Hərbi Liseyin komandaları qərarlaşıblar.

Sonda qaliblər diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

Mükafatları Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov və Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov təqdim ediblər.

✍ **Ceyhun MƏMMƏDOV**



*Yurdumuzun nemətləri*

## Dadı və tamı ilə seçilən Naxçıvan göycəsi



*Muxtar respublikamızda bir çox istiqamətlərdə festivalların keçirilməsi artıq ənənə halını alıb. Son illərin yeniliyi kimi bu sırada kənd təsərrüfatının inkişafı, diyarımızda yetişdirilən müxtəlif növ məhsulların daha geniş formada təbliği məqsədilə təşkil olunan festivallar da xüsusi qeyd olunmalıdır ki, onlardan biri də "Göycə" festivalıdır. Bu qiymətli meyvə məhsulu ilə bağlı festivalın təşkilində başlıca amillər hansılardır? Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əsgər Həsənovla həmsöhbət olduq. O bildirdi ki, Naxçıvan tarixən əkinçiliyin inkişaf etdiyi və özünəməxsus bağçılıq ənənəsi və iqlim müxtəlifliyi ilə seçilən bir diyardır. Mənbələrdə bu qədim diyarda bağçılığın üç min beş yüz ildən çox tarixə malik olduğu qeyd edilir. Muxtar respublikanın əlverişli torpaq-iqlim şəraiti burada gözəl ətrə və ləziz tama malik olan yüksəkkeyfiyyətli meyvələr yetişdirilməsinə imkan verir.*

Hələ XV əsrdə yaşamış tarixçi səyyahların yazılarında qeyd olunur ki, Naxçıvanda olduğu qədər dadlı və ləziz meyvə sortları dünyanın heç bir yerində yoxdur. Burada yetişdirilən meyvələr təzə halda və qurudularaq daxili bazarla yanaşı, xarici ölkələrdə də özünə alıcı tapıb.

Bu qədim diyarda meyvəçilik XIX əsrin əvvəllərindən başlayaraq daha geniş müstəviyə qədəm qoyub. Ötən əsrin 70-80-ci illərində isə meyvə-tərəvəz məhsullarının emalı üçün konserv zavodlarının yaradılması meyvəçilikdə yeni inkişaf mərhələsinin başlanmasına səbəb olub.

Son illər meyvəçiliyin gəlirli sahə kimi inkişaf etdirilməsinə xüsusi önəm verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə qəbul edilən "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na əsasən bu illər ərzində məqsədyönlü tədbirlər həyata keçirilib. İstehsalçılara meyvə bağlarının salınması üçün güzəştli kreditlər ayrılıb və meyvə məhsullarının saxlanması üçün soyuducu anbarlar tikilib istifadəyə verilib. Ali Məclis Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" isə bu istiqamətdə daha geniş tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Ötən müddət ərzində bu sahədə xeyli iş görülüb, yeni meyvə bağları salınıb. Bu zaman yerli və məhsuldar, həmçinin xalq seleksiyaçılarının yetişdirdikləri itməkdə və unudulmaqda olan sortlara üstünlük verilib.

Əsgər Həsənovun sözlərinə görə, naxçıvanlı bağbanlar bir çox əsrlər ərzində özlərinə məxsus üsullarla tumlu, çəyirdəkli və qərzəkli meyvələrin 500-dən artıq nadir sortlarını yetişdiriblər.

Çəyirdəkli meyvələr bioloji cəhətdən bir-birlərinə çox yaxındırlar. Onların becərilməsi üsulları da, demək olar ki, oxşardır. Bu meyvələrdən alça, gavalı və göyəm çox qədim zamanlardan bəzi insanlar tərəfindən meşələrdən dərilərək istifadə edilib. Zaman keçdikcə həmin bitkiləri yaşayış yerlərinin yaxınlığında əkib meyvələrindən qidalanıblar.

Uzun illər xalq seleksiyaçıları bu meyvə bitkilərinin daha məhsuldar sortlarını seçərək calaq yolu ilə yeni sortlarını yaradıblar. Bu meyvə sortlarından ən çox istifadə olunanı alçadır. Alçanın mədəni sortları yalnız Azərbaycanda şöhrət qazanıb və buradan da çox qədim zamanlardan başqa yerlərə aparılıb. Ağacları quraqlığadözümlü, məhsuldar və müxtəlif xəstəliklərə davamlı olduğundan bağlarda çox becərilir. Cır alça gözəl calaqaltı sayılır. Meyvələri erkən yetişmə vəziyyətinə gətirmək üçün insanlar müxtəlif calaqlar edərək göycə sortunu yaradıblar. Göycə daha iri, yetkin meyvəsininləti sulu və şirəli, lət hissəsi çəyirdəkdən tez ayrılan, dadlı və öz tamı ilə seçilən qiymətli bir meyvədir. Azərbaycanın bir çox rayonlarında becərilsə də, meyvəsinin dadına və keyfiyyətinə görə "Naxçıvan göycəsi" daha məşhurdur. Bu sortun meyvəsi göy yeyildiyi üçün ona "göycə" adı verilib. Yetişmiş meyvələri yalnız qurutmaya sərf olunur.

Diyarımızda "tələbi", "göycə sultanı", "yaz mələsi", "yay mələsi", "payız mələsi" (Ordubad rayonunda) sortları geniş yayılıb.

Göycə çox çınqıllı, daşlı və həddindən artıq bərk gilli torpaqları sevmir. Belə torpaqlarda göycə alçaya calanmalıdır. Yaxşı məhsul verməsi üçün o qüvvətli və yumşaq torpaqlara əkilməlidir.

Göycə, gavalı, alça və göyəm bitkiləri üçün torpaqda 3-8 faizə qədər kirəcin (əhəngin) olması çox əhəmiyyətlidir. Bunların meyvələrinin keyfiyyəti kirəcli torpaqlarda yüksək olmaqla bərabər, məhsulları bol olur. Bu növə aid olan meyvə ağacları çəyirdəkləri, pöhrələri, qələmləri ilə artırılır, çox gözəl calaq tuturlar. Toxumları ilə artırıldıqda yalnız özü tozlananlar ana sorta məxsus əlamətləri saxlayırlar, əksər hallarda toxumdan cır alınır. Buna görə də istənilən sortları artırmaq üçün yalnız pöhrələrdən və calaq üsulundan istifadə edilir.

Əsgər Həsənovun sözlərinə görə, Naxçıvan Muxtar Respublikası şəraitində göycə üçün ən münasib və qiymətli calaqaltı alçadır. Bundan başqa, göycə üçün albuxara və gavalı da yaxşı calaqaltı ola bilər, lakin calaqdan alınan göycə ağacının ömrü az olur. Göycədə ən əlverişli calaq göz və yarma calaqları hesab edilir.

Ta qədim dövrlərdən suvarma əkinçiliyinin inkişaf etdiyi dövrə qədər Naxçıvan şəhərində əkin sahələri və meyvə bağları burada mövcud olan qədim kəhrizlərin suyundan istifadə etməklə suvarılıb. Bu gün də şəhərin qədim məhəllələrindən sayılan "Çuxur", "Sarvanlar", "Xıncab", "Şahab" və Əlixan məhəllələrində həyətyanı sahələr, əsasən, kəhriz suları ilə suvarılır.



Naxçıvan şəhərinin məhəllələrində çox qədimdən həyətyanı sahələrdə yetişdirilən alma, göycə, alça, ərik, armud və sair meyvələr öz dadına, tamına, ətrinə və digər keyfiyyətlərinə görə bölgələrdə yetişdirilən meyvələrdən üstün hesab edilib və bu gün də həmin üstünlük saxlanılmaqdadır. Belə ki, tərkibindəki C vitamininin miqdarına görə fərqlənən, yüksək alıcılıq qabiliyyəti olan göycə uzun illərdir ki, insanların sevimli meyvəsi olmaqla, Naxçıvanın adına şöhrət qazandırıb. Aparılan tədqiqatlar belə nəticəyə gəlməyə əsas verir ki, göycənin tərkibində olan turşuluğun, qələviliyin və şəkərliliyin nisbətləri onu pəhriz meyvələr qrupuna aid etməyə əsas verir. Digər tərəfdən, bitkinin kəhriz suyu ilə suvarılması da meyvənin dadına öz təsirini göstərir.

Göycə bağlarının salınması üçün torpağın dərindən şumlanıb hazırlanması vacibdir. Çınqıllı, yumşaq torpaqlarda dərin şuma ehtiyac yoxdur. Çünki göycənin kökləri torpağın üst qatlarında olur. Bağlarda əsas diqqət torpağın becərilməsinə verilməlidir.

Göycə cavan barvermə dövründə çox budanmalıdır. Meyvəvermə yaşına kimi onlara istənilən formanı vermək mümkündür. Ağaclar hər iki ildən bir budanmalıdır. Başlı-başına buraxıldıqda ağac çətirinin ortaları çılpaqlaşır, cavan şivlərin (pöhrələrin) yalnız ağacın çətri altında əmələ gəlməsinə və məhsulun tədricən azalmasına səbəb olur.

Göycə ağacları birinci ilində sürətlə böyüyüb yaxşı boy atır, üçüncü ildə məhsula düşür, 4-5-ci ilində isə məhsul verməyə başlayır. Bu zaman ağacların kökləri torpağın üst qatlarını tamamilə tutur və torpaq gübrələnmədikdə bu qat tezliklə qüvvədən düşür, məhsul azalır. Bunun üçün bağlara payızda, torpaq şumlanan zaman hektara 250-300 kiloqram fosfor, 150-200 kiloqram kalium gübrələrinin verilməsi vacib aqrotexniki tədbirlərdəndir.

Göycənin yaxşı məhsul verməsi üçün torpağın rütubətlə kifayət dərəcədə təmin olunması başlıca şərtlərdən biridir. Quraqlıq mövsümündə göycə bağları suvarılmadıqda meyvələri keyfiyyətsiz olur. Torpaq yüngül tərkibli və özündə suyu çətin saxlayan olduqda suvarmaların sayı artırılmalıdır. Meyvələr yetişənədək rütubətin azlığı məhsulun miqdarına və keyfiyyətinə təsir edir. Onu da deyək ki, Naxçıvan şəraitində ağaclar 5-6 dəfə suvarılmalıdır.

Göycənin meyvələri yetişməmiş halda daha çox istehlak edildiyindən həmin dövrdə tələb daha da artır, bazarda qiymət yüksəlir və məhsulun satışından daha çox gəlir əldə olunur. Onun yığılmamış yetkin meyvələri digər məqsədlər üçün (kompot, cem, lavaşa hazırlanır və ya qurudulur) istifadə olunur.

Aparılan təhlillərə görə, bir hektar sahədən 40-45 ton keyfiyyətli məhsul istehsal etməklə bazarlarda satışa çıxarmaq mümkündür. Muxtar respublika şəraitində yerli bazarlarda bir kiloqram göycənin qiymətini nəzərə alsaq, hektardan 40-45 min manat gəlir əldə edilə bilər. Bu onu göstərir ki, göycə bağlarının salınması iqtisadi cəhətdən səmərəlidir.

Yazımızın əvvəlində muxtar respublikada "Göycə" festivalının keçirilməsi barədə söz salmışdıq. Naxçıvan şəhərinin sakinlərində, diyarımıza gələn qonaqlarda böyük təəssüratlar yaradan ilk festival 2016-cı il may ayının 27-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilib. Festivala Naxçıvan şəhərindən, Şərur, Babək və Ordubad rayonlarından olan 70 torpaq mülkiyyətçisinin yetişdirdiyi müxtəlif növdə 3 tondan çox meyvə çıxarılmışdı. Festivalda göycədən hazırlanan mürəbbə, kompot, turşu, göycə qurusu, eləcə də göycə lavaşası da iştirakçılar tərəfindən maraqla qarşılanmışdı. 2017-ci il iyun ayının 3-də keçirilən ikinci festivala isə 20 tondan artıq məhsul gətirilmişdi. Hər iki festivalın sonunda müsabiqə keçirilmiş, "Ən yaxşı göycə" müsabiqəsinin qaliblərinə diplomlar təqdim olunmuşdu.

Bu gün Naxçıvan şəhərində üçüncü "Göycə" festivalı keçiriləcək. Budəfəki festivalda da muxtar respublikamızın bir sıra bölgələrindən göycə yetişdirən torpaq mülkiyyətçiləri üçüncü dəfə öz məhsullarını nümayiş etdirmək imkanı qazanacaqlar.

✍ **Muxtar MƏMMƏDOV**

***İtmişdir***

Abduləlimov İsmayıl İlqar oğlunun adına "Naxçıvan" Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 372**